# “QARABAĞ ŞEİRİMİZDƏ, NƏSRİMİZDƏ”

## Ədəbi tənqid müstəvisində



*Əkbər ƏLİYEV (ƏLİOĞLU)*
*filologiya üzrə fəlsəfə doktoru*

*(Əvvəli ötən sayımızda)*

Vaqif məllim yazır ki, “əsas odur ki, müharibə insanının bu müharibə ilə bağlı yaşantılarını verə biləsən, bu bəşəri fəlakətin mahiyyətini aça biləsən. Müharibə törədənlərə və qırğına səbəb olanlara lənət də oxumaq olar, onların amansız hərəkətlərinə qarşı nifrət də oyatmaq lazımdır, ancaq bütün bunlar əsas deyildir”. Vaqif Yusifli burada ədəbi təhlillərini məhz bu prizmada aparmış, yazılmış əsərlərin əsl tənqidini və uğurlu detallarını açıb göstərmişdir. Məsələn, Sevinc Nuruqızının tafa Çəmənlinin (“Üç yaşlı əsir”, “Xallı gürzə”, “Ölüm mələyi”), Elçin Hüseynbəylinin (“Vida”, “Əsirlər”, “Qoca”), Vüsal Nurunun (“Qaraqaşlı”) və b. yazıçıların povest və romanları ayrı-ayrı məqalələr formatında təhlilçi qiymətini alıblar. Həmin məqalələrdə haqlarında geniş və ayrıca söhbət açılan povest və romanlar Qarabağ mövzusunda yazılmış nümunəvi əsərlər kimi təqdim olunublar. Bu məqalələrdə təhlil arealı özünü genişliyi və dərinliyi, əhatəliliyi baxımından diqqəti xüsusilə cəlb edir. Aparılan təhlil və şərhlərdən, seçilmiş bədii nümunələrdən də aydın görünür ki, həmin əsərlər güclü bədii istedad sahiblərinin qələminin məhsuludur. Müəllif təhlillərinin inandırıcılığı, canlılığı imkan vermir ki, onlara ayrı-ayrılıqda münasibət bildirək. Yusif müəllim yeri gəldikcə əsərlərin həm məzmunu, xarakterlərin, situativ məqamların səciyyəvi cəhətləri barədə bilgilər verir, həm də onların ədəbi-cameədəki tutduqları mövqeyi təyin edir, təsirli nümunələrlə əsərlərin bədii çəkisini açıqlayır. Bu məqalələrdə hədəflər düzgün seçilib, məqsədlər dolğunluqla öz gerçəkliyinə tapınıb.

“Qaraqaşlı” romanında (Qaraqaşlı İbadın atasının adıdır - Ə.Ə.) Vüsal Nuru əsl müharibə romanı yaradıb və əsərin əksər səhifələrində İbad Hüseynovun (milli qəhrəmandır) və onun kimi vətənpərvər oğulların apardıqları döyüş əməliyyatları təsvir olunur. Özü də hiss olunur ki, Vüsal Nuru müharibənin texniki tərəflərini yaxşı bilir. Onun təsvir etdiyi obrazlara gəldikdə, burada müəllif birbirindən fərqli insan surətləri yaradır. Təbii ki, müharibədə hamı igid olmur, hamı eyni cür düşünmür, amma fərqli düşüncələr eyni məqsəd uğrunda mübarizə aparan adamları bir-birindən ayırmır. Romanda İbad nümunəvi bir döyüşçü - kəşfiyyatçı kimi diqqəti cəlb edir və hamı ona inanır” - kimi müəllif qənaəti tam razılıq doğurur.

Kitabda sıra etibarilə səkkiz məqalədən ibarət olan “Şeirimizdə Qarabağ” adlı silsilə toplu da karlıqla qələmə alınmışdır. Təbii ki, bu məqalələrin də özünəməxsus cizgilərinin Vaqif şərhinə münasibət bildirmək olar. Fəqət bir nüansı vurğulamağı gərəkli bilirik. “Qarabağ - şeirimizdə, nəsrimizdə” başlığı tələb edir ki, kitab iki-üç bölmədən ibarət bir formatda yazılaydı. İndiki halında eyni mövzu üzərində qurulsa da, ayrı-ayrı məqalələr toplusu təsiri bağışlayır, eləcə də kitabın sonuna Elçin İsgəndərzadənin “Mənim Şuşa dastanım” adlı zəfər poemasının təqdiminə də ehtiyac duyulmurdu. Kitab həmin poemanın təhlili ilə sonuclansaydı, bu, məntiqi cəhətdən daha düzgün olardı.

Yekun olaraq bildirək ki, son məqalələrdə haqqında ilk öncədə söhbət açılmayan yazarların əsərləri haqqında da danışılır. Bu, müəllifin, həqiqətən,



“Qisas” povestindən yazarkən Akif Hüseynovun maraqlı bir fikrini diqqətə çatdırır: “Qarabağ müharibəsinin təcəssümündə yazıçılarımız şablon təfsilatlardan, stereotip mühakimə tərzindən xilas ola bilmirlər”. Fikrin ardınca müəllif yazır: “Bəs bu şablon təfsilatlar və stereotip mühakimə tərzi nədən ibarətdir?

Əsirlik həyatının demək olar ki, oxşar məzmunlu hadisələr üzərində qurulması, ermənilərin törətdiyi vəhşiliklərin bütün dəhşətləri ilə təsviri, qadınların, qızların təhqirlərə, işgəncələrə məruz qalması, qaçqınların, köçkünlərin həyatının təfsilatı ilə nəqli... Bunlar əsərdən-əsərə, kitabdan-kitaba çox zaman eyni üsulla gəlir və sonu da eyni şəkildə başa çatır və beləliklə, şablon təfsilatlar baş alıb gedir..., yazıçılarımız bu müharibənin yalnız məyusluq doğuran səhifələrinə üz tuturlar? Etiraf edim ki, adını çəkdiyim povestin də bu iradlardan kənar görünmür.

Bəli, bu, belədir. Biz bu fikirdəyik ki, Qarabağ müharibəsi mövzusunda klassik bir sənətkarlıqla, dünyəvi arenalıq qazana biləcək, ədəbi hadisə kimi dəyərləndiriləcək bədii nəsr nümunəsi hələ ki yazılmayıb, lakin yazılmalıdır. Qaldı ki, müəllifin iradları ilə razılaşmamaq mümkün deyil. Lakin bununla bağlı bir nüansı anmaq istərdik; bu oxşarlıqlar dərin dil qatları ilə, ictimai-fəlsəfi bir vüsətlə, ümumbəşəri mühakimələr silsiləsilə, dünyəvi düşüncələr axarı ilə, mükəmməl səviyyəli metaforik fiqurlarla müşayiət olunubsa?.. Bəs onda necə olsun? Əminliklə deyə bilərik ki, bu zaman Yusif müəllim bənzərsiz üslub nümayişlərindən, məzmun və mündəricədə klassik sənətkarlıq məziyyətlərindən, ideya-bədii sənətkarlığın təsir arealının “heyrət ey büt...” sərhədsizliyindən söz açacaqdı, amma nə edəsən, əlahəzrət həqiqəti pərdələmək olmaz, bu, mümkün deyil.

Kitabda iki bölmədən ibarət kiçik monoqrafiyadan sonra (monoqrafiya kitabın üçdə bir həcmindədir - Ə.Ə.) ayrıca olaraq Aqil Abbasın (“Tut ağacı, donuz kababı və aşotun məktubu”), Səyyad Aranın (“Başdaşı”, “İrəvana gedən yollar”), Mus özünə yer alıb. Həmin məqalələri ilkin kiçik monoqrafiyanın təbii davamı kimi qəbul etmək olar. Və onlar zənn edirik ki, elə onun mətnində verilsəydi, monoqrafiya öz sanbalını daha da artırmış olardı. Bir də ona görə ki, həmin məqalələrdə adları çəkilən bəzi şairlərin yaradıcılığı barədə monoqrafiyada söhbət açılıb. Aşkar hiss olunur ki, bu məqalələr ayrıca ardıcılıqla monoqrafiyadan kənar bir sistem kimi düşünülmüşdür. Həmin məqalələrin hər birini ayrıca təhlilə cəlb etmək uzunçuluq olardı. Bu məqalələr də əvvəlki bölmələrdə olduğu kimi peşəkarlıq və professionallıqla yazılmışdır. Təbii ki, tənqidi təfəkkürün müəllif yanaşmalarında önə keçməsi şərtilə. Müəyyən nümunələrdə mövzuya müəllif yanaşmaları, fikrin ifadə imkanlarında oxşar paralelliklərin qruplaşdırılmış formatda təqdimatı V.Yusiflinin fərdi üslubuna, həm də düzgün seçimlə yazı ədasına tamamilə uyğundur. Eyni mövzulu əsərlərin rəngarəng çeşidlərdə müəlliflər tərəfindən fərdi ifadə çalarlarında Vaqif yozumu xüsusi halda diqqətçəkicilik qazanıb, klassik analitik təhlilin nümunəvi ifadəsi kimi mənalı və dəyərlidir. Bu baxımdan seçilən nümunələr öz emosional təsir gücü, psixoloji yaşantıların lirikdramatik fəci komponentlərinin təbii, canlı görüntüləri müəllifin təhlil sənətkarlığına, müəllifin təhlil sənətkarlığı isə nümunələrin poetik siqlətinin tutumu və mükəmməliyinə qaynayıb-qarışıb, nəticədə bu vəhdət dəyərli bir tədqiqat postamentinə çevrilə bilib. Əslində “Şeirimizdə Qarabağ” silsiləsindən sonra sıralanan “Poeziya döyüşür”, “Ümid sənədir ancaq, Azərbaycan əsgəri”, “Poeziya susmur... Vətən əsgərdən başlayır”, “Evimizə gedirəm, evimiz Şuşadır”, “Rafiq Tağızadənin Qarabağ şeirləri”, “Vaqif Yusifli “Şuşa... Əli Mahmud!.. Göyərməz bir qara daş”, “Emin Piri - Yeni səs, yeni nəfəs”, “Poeziya 2018” məqaləsindən bir parça” adlı məqalələr də eyni həssaslıq, dəqiqlik və peşə geniş zəhmətinin, araşdırmalar aparmasının nəticəsi kimi dəyərləndirilməlidir. Bir halda ki, kitabda fundamentallıq üçün açıq zəmin var, niyə də onum təkrar nəşrinə rəvac verilməsin? Budur müasir ədəbi tənqidimizin ağsaqqalı, missiyalı tənqidçi dostum, böyük qardaş səciyyəli hörmətini saxladığım Vaqif müəllim son “Poeziya 2018” məqaləsində mövzuya yekun vurur, zəif əsərlərin də çoxluğunu dilə gətirir, şeirimizin lirik qəhrəmanını bir daha bizə təqdim edir və daha mükəmməl əsərlər yaradan şair və yazıçılarımızın adlarını çəkir, eləcə də 2016-cı ilin aprel döyüşlərinin təsirli poetik ifadəsini göstərən R.Duyğun, Rəşid Faxralı, Musa Ələkbərli, Rəfail Tağızadə, Əli Rza Xələfli, Əli Nəcəfxanlı və b. kimi şairlərin əsərlərindən aldığı təsirli duyğuları sevinclə bəyan edir. Və düşüncələrinin son akkordunu səsləndirir: “Şeirimizdə əsl azadlıq ruhu dolaşmaqdadır və hər bir şair müstəqilliyin ona bəxş etdiyi bu mənəvi azadlıqdan bəhrələnir. “Sovet adamı” obrazına daha ehtiyac qalmayıb. Müstəqillik dövrünün şeirində isə lirik qəhrəmanın həyat hadisələrinə, dünyaya, zamana, insana, Tanrıya, ölümə, varlığa-yoxluğa münasibəti dəyişib... şairlər bir vaxtlar sanki içərlərinə çökmüş dumanı ciyərlərinə çıxarıb azad nəfəs alırlar”. Və nəhayət, bu azad nəfəs alanların otuz səkkiz nəfərinin adları... O adlar ki, ədəbiyyatımızın orta nəslini təmsil etməkdədir.

“Qarabağ şeirimizdə, nəsrimizdə” kitabı öz mahiyyəti etibarilə son illərdə yazılmış qiymətli tədqiqatlardandır. Müasir olduğu qədər də xalqın qangen yaddaşında tarixləşəcək əsərdir. Onun akademik təkrar nəşrini, özü də mövzunun dramaturgiyamızdakı əks-sədası da daxil olmaqla hazırlamaq ədəbiyyatşünaslıq elmimizin növbəti nailiyyəti olardı.

*28.06.2025*